# HACIQABUL

№ 23
(657)

15 noyabr
2016-cı il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti


# İstiqlalımızın rəmzi -Dövlət Bayrağımız

## *Noyabrın 8-də Hacıqabul rayonunda Dövlət Bayrağı gününə həsr olunmuş tədbir-yürüş keçirildi*



***Üçrəngli bayrağımız dövlətimizin müstəqilliyinin, xalqımızın milli mənsubiyyətinin, tarixinin və mənəvi dünyasının rəmzidir.***

Bayraq hər bir millətin və milli dövlətin atribut rəmzlərindən biridir. Bütün xalqların və millətlərin timsalında bayraq müstəqilliyin və milli dövlətçiliyin əsası kimi səciyyələndirilir. Zəngin tarixi irsdən yaranaraq uğrunda on minlərlə insanın canından keçdiyi üçrəngli bayrağımız tarixi yolumuzun , milli ideologiyamızın təməl prinsiplərini tam mənası ilə izah edir.

Azərbaycanın üçrəngli bayrağı dahi mütəfəkkir və ziyalı Əli bəy Hüseynzadənin hələ əsrin əvvəllərində milli yaşam fəlsəfəsi kimi irəli sürdüyü "Türkləşmək, müasirləşmək, islamlaşmaq" devizinə əsaslanmışdır. Türkləşmək-milli ənənələrin dirçəlməsi, milli dilin, ədəbiyyatın, tarix və mədəniyyətin yüksəldilməsi, islamlaşmaq-islamda milli dini əxlaqi və ümumbəşəri dəyərlərin inkişaf etdirilməsi, müasirləşmək isə Avropa elm və texnikasının nailiyyətlərinin öyrənilib nəticələrini milli elm və mədəniyyətin inkişafına istiqamətləndirməkdir.

Üçrəngli bayrağımızın dövlət rəmzi kimi bərpası və yüksəldilməsi istiqamətində ilk israrlı, vətənpərvər cəhdlər ulu öndər Heydər Əliyevin hələ Naxçıvana rəhbərlik etdiyi dövrə təsadüf edir. Həmin dövrdə respublikada geniş vüsət almış milli azadlıq hərəkatı ilə eyni dövrdə xalqda milli heysiyyət, özünüdərki gücləndirən, milli dövlət rəmzlərinə hörmət təlqin edən genişmiqyaslı addımlar da məhz ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə atılmışdır.



Ümummilli liderin rəhbərliyi altında hazırlanaraq 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmiş Azərbaycan Konstitusiyasında üçrəngli bayraq dövlət rəmzi kimi təsbit edilmişdir.

Ulu öndərin milli mənafelərə əsaslanan siyasətini bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev milli dövlət atributlarını uca tutur, konkret addımları ilə bu ruhu cəmiyyətə aşılayır. Prezident İlham Əliyev 2009-cu il noyabrın 17-də imzaladığı sərəncamla Azərbaycanın üçrəngli bayrağının ilk dəfə rəsmi ucaldığı 9 noyabr tarixini "Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü" kimi təsis etmişdir.Keçmişimizə, milli dəyərlərimizə, tarixi-mədəni irsə yüksək qayğı ilə yanaşan ölkə başçısının bu sərəncamının əsasında ilk növbədə milli bayrağa, onun fəlsəfəsinə yüksək hörmət, vurğunluq dayanır.

2010-cu ildən başlayaraq noyabrın 9-u hər il respublikamızda Dövlət Bayrağı Günü kimi qeyd olunur.

Noyabrın 8-də rayonumuzda Dövlət Bayrağı gününə həsr olunmuş tədbir və Bayraq Meydanına yürüş keçirildi.

Əvvəlcə rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov və tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, abidə önünə tər gül dəstələri düzdülər. Sonra tədbir iştirakçılarının şəhərimizin girəcəyində ucaldılmış Bayraq Meydanına yürüşü keçirildi. Yol boyu əllərində üçrəngli bayrağımızı qürurla dalğalandıran gənclər, tədbir iştirakçıları hərbçilərimiz vətənpərvər ruhlu mahnıların və hərbi təbilin sədaları altında Bayraq Meydanına yollandılar. Dəstənin önündə gedən hərbçilərimiz əllərində olan üçrəngli bayrağımızı çiyinləri üstünə qaldıraraq Azərbaycan bayrağının nə qədər uca, dəyərli olduğunu bir daha nümayiş etdirdilər. Onların arxasınca gedən üçrəngli bayrağımızla bəzədilmiş maşın karvanı və bayraqdarlar nəhayət ki, Bayraq meydanına yetişib meydanı dövrəyə aldılar.Burada onlar gənc rəssamların əl işlərindən ibarət sərgiyə tamaşa etdilər.

Sonra rayonun Mədəniyyət və incəsənət ustaları tədbir iştirakçıları qarşısında konsert proqramı ilə çıxış etdi. Müğənnilərin ifasında səslənən vətənpərvər ruhlu mahnılar tədbiri daha da rövnəqləndirdi.

***"Hacıqabul"***





# Milli Konstitusiyamız işıqlı sabahımız, demokratik inkişafımızın qarantıdır

***Ümummilli liderimiz Heydər Əliyevin şah əsəri olan Əsas Qanunumuz xalqımızın yekdil və sarsılmaz iradəsini əks etdirərək, müstəqil dövlətimizin əsas prinsiplərini, demokratik dövlət quruculuğunun başlıca istiqamətlərini, ölkə vətəndaşlarının fundamental hüquq və vəzifələrini müəyyənləşdirmişdir.İlk Konstitusiyamızın qəbul olunmasının artıq 21 ili tamam oldu. 1995-ci ilin 12 noyabrında qəbul edilmiş Konstitusiyamız qabaqcıl dünya təcrübəsinə, qanun yaradıcılığı prinsiplərinə, çoxəsrlik dövlətçilik ənənələrinə əsaslanır. Milli Konstitusiyamızın qəbulu ölkəmizin həyatında mühüm tarixi hadisə kimi yadda qalmışdır. Konstitusiyamız dövlət quruculuğunda, ictimai-siyasi, sosial-mədəni və iqtisadi sahələrdə demokratik proseslərə təkan verdi. İnsan hüquq və azadlıqlarının prioritetliyi prinsiplərinə əsaslanan Konstitusiyamız demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu üçün möhkəm təməl yaradır, cəmiyyətin humanizm, milli həmrəylik və tolerantlıq ruhunu təsbit edir, vətəndaşların müxtəlif sosial qruplar arasında harmonik münasibətlərini stimullaşdırır.***

12 noyabr 1995-ci ildə referendum yolu ilə müstəqil Azərbaycan Respublikasının ilk Milli Konstitusiyasının qəbul edilməsi qarşıda geniş üfüqlər açmışdır. Dahi şəxsiyyət Heydər Əliyevin yeni Konstitusiya hazırlanmasında, qəbul edilməsində gərgin əməyi və töhfəsi danılmazdır.

Artıq 21 ildir ki, cəmiyyətimiz müasir Konstitusiya əsasında yaşayır.Bu dövr ərzində bir çox sahələrdə əldə edilmiş nailiyyətlər dövlətimizin sivil dövlətlər ailəsinin tamhüquqlu üzvü olmasına əsas yaratmışdır.

Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi siyasətin əsasında hər zaman insan amili dururdu. Azərbaycanda bu gün də bu siyasət uğurla həyata keçirilir, hər şey insan üçün, hər şey Azərbaycan vətəndaşı üçündür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin əsasını da bu prinsip təşkil edir.

Müasir tariximizin əlamətdar hadisələrindən olan 12 noyabr Konstitusiya günü rayonumuzda da qeyd olunmuşdur. Əlamətdar gün münasibəti ilə rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, ayrı-ayrı idarə, müəssisə rəhbərləri ulu öndər, Milli Kostitusiyamızın banisi Heydər Əliyevin abidəsini ziyarət edərək, abidə önünə tər gül dəstələri düzmüşlər.

***"Hacıqabul"***

# Hacıqabullu məktəblilər "Ölkəmizi tanıyaq" tur-aksiyasında

Artıq 9-11-ci sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi altında maarifləndirici tur-aksiyanın keçirilməsinə başlanılıb. Ölkəmizin bütün bölgələrinin əhatə olunduğu bu tur-aksiyada Hacıqabul məktəbliləri də iştirak edib.

Layihənin əsas məqsədi gəncləri Azərbaycanın müxtəlif bölgələrinin tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri ilə yaxından tanış etmək, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqillik illərində əldə olunan nailiyyətlərin dərindən öyrənilməsinə nail olmaq, eyni zamanda Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə ölkəmizin hazırkı dinamik sosial-iqtisadi inkişafını, gündən-günə gözəlləşən, abadlaşan şəhər və rayonlarımızın müasir simasını göstərməkdir.

**(davamı səh. 2-də)**

1.qxd 30.12.2016 10:50 Page 2



# Hacıqabullu məktəblilər "Ölkəmizi tanıyaq" tur-aksiyasında





(əvvəli səh. 1-də)

Noyabrın 12-də rayonumuzun ümumtəhsil məktəblərinin 40 nəfər şagirdi tur-aksiya çərçivəsində Qəbələ-Şəki-Zaqatala istiqaməti üzrə səfər etdilər. Yola salınmazdan öncə məktəblilər Heydər Əliyev parkında ağacəkmə aksiyasında iştirak etdilər. Sonra rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov və tur-aksiya iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək abidə önünə gül dəstələri düzdülər. RİH Başçısı məktəblilər qarşısında çıxış edərək onlara uğurlu yol arzuladı.Sonra valideynlərin, müəllimlərin müşaiyyəti ilə məktəblilər onlar üçün ayrılmış avtobusla Qəbələ-Şəki-Zaqatala istiqaməti üzrə yola düşdülər.

Səfərdə məktəblilər Qəbələ rayonunda Heydər Əliyev adına Konqres Mərkəzi ilə, "Qəbələnd" istirahət mərkəzi ilə, "Beltmann" piano zavodu, "Tufandağ" xizəkçilik kompleksi və Qəbələ konserv zavodu, Çuxur-Qəbələ Tarix-mədəniyyət qoruğu, Nohur gölünə, Vəndam şəlaləsinə ekskursiyalar edəcəklər. Tur çərçivəsində məktəblilərimiz həmçinin Şəki Dövlət tarix-memarlıq qoruğu, Şəki xan sarayı, Yuxarı Karvansaray, Cümə məscidi, qədim Alban məbədi ilə tanış olacaqlar. Zaqatala rayonunda Zaqatala tarixi mədəniyyət qoruğu, DədəQorqud meydanı ilə tanış olacaq, fındıq emalı zavoduna baxış keçirəcəklər.

Ümüdvarıq ki, rayonumuzun məktəbliləri turaksiyadan zəngin təəssüratlarla qayıdacaqlar.

***"Hacıqabul"***

## "Azərbaycanda Yerli Demokratiya Həftəsi" yerli özünüidarəetmə orqanlarının inkişafında önəmli rol oynayacaqdır

Məlum olduğu kimi Azərbaycan şəhər, qəsəbə, kənd bələdiyyələri oktyabr ayının 31-dən noyabr ayının 5-dək "Azərbaycanda Yerli Demokratiya Həftəsi " çərçivəsində müvafiq tədbirlər həyata keçirmişdir. Bələdiyyələrin vətəndaşlarla əlaqələrinin möhkəmləndirilməsi məqsədi ilə həftə ərzində "Açıq qapı" günləri təşkil edilmiş, bütün bələdiyyə ərazilərində həftə ərzində "Çox mədəniyyətli cəmiyyətlərdə birgə yaşayış: hörmət, dialoq, qarşılıqlı əlaqə" adı altında müxtəlif tədbirlər həyata keçirilmiş, 2015-ci ildə görülmüş işlər, o cümlədən "Bir bələdiyyə-azı bir layihə" təşəbbüsü çərçivəsində həyata keçirilmiş layihələr barədə hesabatlar dinlənilmiş, 2016-cı ilin bələdiyyə büdcəsinin və həyata keçirilməsi nəzərdə tutulmuş layihələrin müzakirəsi üçün vətəndaşlarla açıq və qapalı yerlərdə görüşlər təşkil olunmuşdur.

Bələdiyyə sədrləri və üzvləri tərəfindən vətəndaşların qəbulu məqsədilə bələdiyyədə "açıq qapı" günləri elan edilmiş,vətəndaşlarla operativ əlaqənin təmin edilməsi məqsədilə "qaynar xətt" telefon nömrəsi elan edilmiş, "qaynar xətt" vasitəsi ilə qaldırılan məsələlərin qeydə alınması və cavablandırılması təşkil olunmuşdur.

Küçələrdə, bələdiyyənin inzibati binasının qarşısında və əhalinin sıx toplaşdığı yerlərdə "bələdiyyə poçt qutuları"ı quraşdırılmış, bələdiyyənin inzibati ərazisində və bələdiyyənin yerləşdiyi binada "Yerli Demokratiya Həftəsində fəal iştirak edək", "Bələdiyyə-vətəndaş, vətəndaş-bələdiyyə əlaqələrini möhkəmləndirək", "Vətəndaşların yerli özünüidarəetmədə iştirakını təmin edək" şüarları yazılmış plakat və transparantlar asılmışdır.

Həftə ərzində 15 şəhər, qəsəbə, kənd bələdiyyəsində vətəndaşlarla 50 görüş keçirilmiş, görüşlərdə 6016 vətəndaş iştirak etmiş, 127 vətəndaş bələdiyyələr tərəfindən qəbul olunmuşdur.

***"Hacıqabul"***

# Tolerantlıq gününə həsr olunmuş tədbir keçirildi



***Beynəlxalq Tolerantlıq Günü ərəfəsində ölkəmizin bütün bölgələrində olduğu kimi rayonumuzun Heydər Əliyev Mərkəzində də maarifləndirici tədbir keçirildi.***

Tədbiri açan rayon İcra Hakimiyyəti Başçısının müavini Zeynəb Yunisova müxtəlif dini konfenssiyalara, irqi və milli mənsubiyyətə malik insanlar arasında münasibətlərin tənzimlənməsində, xalqlar arasında dostluğun və birgəyaşayışın qorunub saxlanmasında tolerantlıq və multikultural dəyərlərin mühüm rol oynadığından danışdı. Ölkəmizdə ta qədimdən mövcud olan multikulturalizm və tolerantlığın artıq dövlət siyasəti səviyyəsinə qaldırılmasını qeyd etdi. Prezident İlham Əliyevin sərəncamı ilə 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsinin ölkəmizdəki bütün xalqların qədimdən multikultural ənənələrin hakim olduğu mühitdə mehriban yaşadığını bir daha sübut etdiyini vurğuladı.

Tədbirdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun baş mütəxəssisi Vidadi Rzayev Azərbaycanda normal tolerant mühitin olmasından, burada müxtəlif xalqların nümayəndələrinin, fərqli dinlərə mənsub insanların eyni hüquqa malik olmasından, əsrlərdən bəri qardaşlıq, dostluq şəraitində yanaşı yaşamasından danışdı. Qeyd etdi ki, Azərbaycanda hər zaman bütün dinlərə və fərqli mədəniyyətlərin daşıyıcılarına eyni qayğı ilə yanaşılıb. Buna ölkəmizdə milli, irqi və dini zəmində münaqişələrin, qarşıdurmaların olmaması da əyani sübutdur. Azərbaycanın multikulturalizm modeli dünyada qəbul edilir və öyrənilir - deyən natiq qeyd etdi ki, Azərbaycanın ədəbiyyatı, mədəniyyəti. dünyaya baxışı sevgi üzərində qurulub Bu da bizim tolerantlığımızın göstəricisidir.

Müzakirələrdə müəllimlər, ictimaiyyət nümayəndələri, rayonun din xadimlər iştirak etdilər.

***"Hacıqabul"***

*Aqrar sahə*

# Pambıq yığımı davam edir

***Bu il Hacıqabul fermerləri 526 hektar sahədə pambıq əkiblər. Padarda 400, Qarasuda 40, Meynimanda 25, Abdulabadda 15, Ələtlidə 16, Muğanda 30 hektar sahədə böyük zəhmət hesabına yetişdirilən pambığı tez və itkisiz toplamaq üçün rayon İcra Hakimiyyətində qərargah yaradılmışdır. Qeyd edək ki, fermerlər əl yığımı ilə yanaşı texnikanın gücündən də istifadə edirlər. Odur ki, bir an belə əl işdən soyumur. Pambığın qiymətinin artırılması, ölkə başçısının müvafiq sərəncamı ilə yığılan xam pambığın hər kq-na 0,1 manat subsidiyanın verilməsi pambıqçıları daha da həvəsləndirib.***



**Ağ örpəkli tarlalarda hünər göstərən qızlar yenə də var...**

Rayonumuzda bu günə kimi artıq 611 tondan artıq pambıq yığılıb.Fermerlər pambıq sahələrində hələ bol məhsul olduğunu söyləyir, havaların mülayimləşməsi ilə yenidən tarlalarda qızğın yığıma başlandığını deyirlər. Yığılan məhsul Sabirabad MTK-nın pambıq zavoduna təhvil verilir. Satılan pambığın dəyəri isə yerindəcə zəhmətkeşlərə ödənilir.

Bu il sentyabrın 17-də pambıqçılığın inkişafı ilə bağlı Sabirabad rayonunda keçirilən birinci ümumrespublika müşavirəsində cənab Prezident İlham Əliyev ötən əsrin 70-80-cı illərində bu sahədə qazanılmış uğurlardan söz açmış, sonralar müəyyən səbəblər üzündən pambıqçılığın tənəzzülə uğradığını qeyd etmişdir. Bu sahənin yenidən inkişafı üçün Prezident pambıqçılar qarşısında çox mühüm bir vəzifə qoyaraq demişdir: " Sabirabad rayonu ilə yanaşı bütün pambıq əkilən rayonlarımızda pambıqçılığın bərpası içi sürətlə gedəcək, biz pambıqçılığın şöhrətini bərpa edəcəyik. Bu həm insanlar, həm də dövlət üçün böyük gəlir gətirən sahədir."

Respublika müşavirəsində qarşıya qoyulan vəzifələrin və tapşırıqların yerinə yetirilməsi üçün Hacıqabul rayon İcra Hakimiyyəti tərəfindən hazırlanan tədbirlər planı pambıq istehsalçılarının rayon müşavirəsində geniş müzakirə edilmiş, bununla bağlı fermerlərə kömək məqsədilə rayon İcra Hakimiyyəti Başçısı torpaqların əkinə hazırlanması üçün texnikaların verilməsinə, toxumluq çiyidlə, səpin aqreqatlarıyla, suvarma qurğularıyla, mineral gübrələrlə, herbisidlərlə və yığım kombaynları ilə onların vaxtında təmin olunması üçün aidiyyatı təşkilatlara və şəxslərə tapşırıqlar vermişdir.

Gələn il rayonumuzda 1200 hektar sahədə pambıq əkilməsi nəzərdə tutulmuşdur. Bununla əlaqədar rayonun iqtisadi potensialının təhlil edilməsi, əlavə imkanların müəyyənləşdirilməsi və reallaşdırılması istiqamətində geniş tədbirlər həyata keçirilir.

Rayonumuzun pambıq fermerləri qeyd edirlər ki, gələn il üçün təsərrüfatlarımızın əkin sahələrində yüksək aqrotexniki qaydada sənaye texnologiyası əsasında pambıq əkilib becərilməsi üçün indidən mövsümi işlərə başlamışıq. Çalışacağıq ki, qarşıya qoyulan vəzifə və tapşırıqların icrasına günün tələbləri səviyyəsində nail olaq.

***"Hacıqabul"***

1.qxd 30.12.2016 10:50 Page 3





# Kənd Təsərrüfatı işçiləri peşə bayramlarını qeyd etdilər

***Ölkə Prezidenti İlham Əliyevin 2008-ci il 9 oktyabr tarixli sərəncamı ilə hər il noyabrın 1-i Azərbaycanda kənd təsərrüfatı işçiləri günü kimi qeyd olunur. Bu il də ölkənin aqrar sektorunda çalışanlar öz peşə bayramlarını yüksək göstəricilərlə qeyd etdilər. Xüsusən ölkəmizdə qeyri neft sektorunun, bu sektorun əsas qolu olan kənd təsərrüfatının inkişafı üçün soxsaylı qərarlar verilmiş, tədbirlər görülmüşdür.***

Fermerlərin torpaq vergisindən başqa bütün növ vergilərdən azad olunması, onlara işlətdikləri yanacaq və sürtkü yağlarına görə subsidiyaların verilməsi, aqrar sektorda çalışan sahibkarlara gübrə, toxum, kənd təsərrüfatı texnikası və damazlıq heyvanların güzəştli qiymətlərlə satılması kənd adamını torpağa daha çox bağlayıb.

Eyni zamanda dövlət başçısının tövsiyyəsi ilə kənd təsərrüfatı məhsullarının ixracını təmin etmək məqsədilə bir çox sahələrin yenidən dirçəldilməsi istiqamətində mühüm addımlar atılır. Pambıqçılığın, tütünçülüyün, üzümçülüyün, baramaçılığın, çayçılığın və meyvə-tərəvəzin istehsalı istiqamətində görülən işlər məhz bu məqsədə xidmət edir.

Bir sözlə kənd təsərrüfatına göstərilən dövlət dəstəyi nəticəsində ölkənin ərzaq təhlükəsizliyi təmin edilir, idxaldan asılılıq azalır, ixracda isə ildən-ilə aqrar sektorun payı artır.

Rayonumuzun kənd təsərrüfatı işçiləri də öz peşə bayramlarını qeyd etdilər. Həmin gün rayonun kənd təsərrüfatı işçiləri ulu öndər, ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdilər. Abidə önünə tər gül dəstələri düzdülər. Ulu öndərə ehtiramlarını bildirdilər.

***"Hacıqabul"***

# Hacıqabul rayonunda əhaliyə göstərilmiş xidmətlərin həcmi artmışdır

***Əvvəlki illərdə olduğu kimi 2016-cı ildə də əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi artmışdır.Cari ilin doqquz ayında istər dövlət müəssisələri, istərsə də fiziki şəxslər tərəfindən müxtəlif ödənişli xidmətlər həyata keçirilmiş və bu xidmətlərin həcmi 21080 min manat təşkil etmişdir.Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhaliyə göstərilmiş pullu xidmətlərin həcmi müqayisəli qiymətlərlə 3,4 faiz artmışdır.Rayonda hüquqi şəxslər tərəfindən reallaşdırılan xidmətlərin həcmində bu artım 2,1 faiz, fiziki şəxslərdə isə 3,6 faiz təşkil etmişdir.Qeyd etmək lazımdır ki, 2016-cı ilin üçüncü rübündə əhaliyə 7200 min manatlıq ödənişli xidmətlər göstərilmişdir.***

2016-cı ilin yanvar-sentyabr aylarında rayonda əhaliyə göstərilmiş pullu xidmətlərin həcmində hüquqi şəxslərin payı 10,1 faiz və ya 2117,8 min manat, fiziki şəxslərin payı isə 89,9 faiz və ya 18962,2 min manat olmuşdur.Araşdırılan dövrdə rayonda dövlət mülkiyyətində olan müəssisələr tərəfindən əhaliyə 2106,8 min manatlıq ödənişli xidmətlər həyata keçirilmişdir ki, bu da rayon üzrə göstərilmiş ümumi pullu xidmətlərin 10,0 faizini təşkil edir.2016-cı ilin yanvar-sentyabr aylarında Hacıqabul rayonunda hər sakinə düşən pullu xidmətlərin ümumi həcmi 289,1 manat, orta aylıq həcmi isə 32,1 manat olmuşdur.

Cari ilin doqquz ayında əhaliyə göstərilmiş ödənişli xidmətlərin həcmində məişət xidmətlərinin payı 20,6 faiz və ya 4340 min manat təşkil etmişdir.Ötən ilin müvafiq dövrü ilə müqayisədə məişət xidmətlərinin həcmi 6,0 faiz artmışdır.Bu artım hüquqi şəxslərdə 0,5 faiz, fiziki şəxslərdə isə 6,0 faiz təşkil etmişdir.Rayonda əhaliyə göstərilən məişət xidmətlərinin bilavasitə hamısı qeyri-dövlət mülkiyyətində olan müəssisə və fiziki şəxslər tərəfindən həyata keçirilmişdir.Qeyd etmək lazımdır ki, 2016-cı ilin üçüncü rübündə əhaliyə 1480 min manatlıq ödənişli məişət xidmətləri göstərilmişdir.Cari ilin doqquz ayında rayonda hər sakinə göstərilmiş məişət xidmətlərinin ümumi həcmi 59,5 manat, orta aylıq həcmi isə 6,6 manat təşkil etmişdir.

2016-cı ildə rayonda əhaliyə göstərilmiş iaşə xidmətlərinin həcmində də artım müşahidə olunmuşdur.Belə ki, 2016-cı ilin yanvar-sentyabr aylarında Hacıqabul rayonunda 2570 min manatlıq iaşə dövriyyəsi qeydə alınmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz çoxdur.Araşdırılan dövrdə qeydə alınan iaşə dövriyyəsi bilavasitə özəl sektorun hesabına reallaşmışdır.Cari ildə qeydə alınmış iaşə dövriyyəsinin 34,1 faizi və ya 880 min manatı üçüncü rübün payına düşür.

***Rayon***
***Statistika İdarəsi***

# Mən həyatı seçirəm

***Rayon Heydər Əliyev Mərkəzində Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi və rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Mən həyatı seçirəm"adllı maarifləndirici tədbir keçirildi.***



Tədbiri rayon İcra Hakimiyyəti Başçısının müavini Zeynəb Yunisova açaraq tədbir iştirakçılarına milli-mənəvi dəyərlərimizdən, mənəvi dəyərlərimizin saxlanılmasından danışdı, gənclərə zərərli vərdişlərdən, erkən nikahlardan uzaq olmağı tövsiyyə etdi.

Tədbirdə iştirak edən Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva çıxış edərək insanların tərbiyəsində milli mentalitetin əhəmiyyətindən, Azərbaycan xalqının əxlaqi dəyərlərə önəm verməsindən xalqımızın, eləcə də bu günkü gəncliyin İslam dininin əxlaqi prinsiplərinə hörmətlə yanaşdığından danışaraq qeyd etdi ki, lakin cəmiyyətimizdə pis vərdişlərin aludəçiləri olan insanlar da vardır. Bu gün cəmiyyətimizdə ən aktual mövzulardan olan narkomaniya və erkən nikahların qurbanı olan ailələrdən danışan natiq, qeyd etdi ki, həyatda baş verən bütün qeyri-normal və cinayət hadisələri zərərli vərdişlərin aludəçiləri tərəfindən törədilən hadisələrdir.Narkomaniya özü ilə yalnız bir insanın fiziki və mənəvi xəstəliyini gətirmir, o, zəncirvari pisliklərə qapı açır.Cəmiyyətimizdə ciddi məqamlardan biri də erkən nikahlardır-deyən A.Sofiyeva erkən nikahların törətdiyi fəsadlardan danıdı.Vurğuladı ki, hazırda ölkəmizdə qızların erkən yaşda ailə qurması, zorakılığa məruz qalması kimi neqativ halların aradan qaldırılması üzrə dövlətimiz tərəfindən proqramlar, tədbirlər həyata keçirilir.

Sonra tədbir iştirakçıları erkən nikahların və narkomaniyanın tprətdiyi fəsadları özündə əks etdirən sosial çarxa tamaşa etdilər.

Tədbirdə şəhər 8 saylı məktəb-liseyin müəllimi İlqarə Muxtarova, rayon Ağsaqqallar Şurasının sədri Əlihəsən Əlihəsənov, rayon Gənclər və İdman İdarəsinin rəisi Saleh Ələsgərov, din xadimi Həsrət Şıxəliyev, rayon polis şöbəsinin əməkdaşı Ziya Yolçiyev, valideyn Xurşud Həmidova, məktəbli Gilas Mehtiyeva çıxış etdilər.

Canlı dioloq şəklində davam edən tədbirdə fikir və mülahizələr dinlənildi,iştirakçıları maraqlandıran məsələlərə aydınlıq gətirildi.

***"Hacıqabul"***

# "Dünyəvi dövlətdə din: Azərbaycan modeli" mövzusunda seminar-treninq

***Bu günlərdə şəhər Folklor mərkəzində "Dünyəvi dövlətdə din: Azərbaycan modeli" mövzusunda seminar treninq keçirildi.***

Tədbiri rayon İcra Hakimiyyəti Başçısı Aparatının məsul işçisi Elvin Şıxıliyev açaraq ölkəmizdəki tolerantlıq mühitindən danışdı, Azərbaycanın tolerantlığın canlı nümunəsi olduğunu qeyd etdi.Ölkəmizdə bütün dinlərin nümayəndələrinə bərabər münasibətin göstərildiyindən danışdı.

Tədbirdə iştirak edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini Qurumlarla İş Şöbəsinin müdiri Əliheydər Zülfüqarov, komitənin əməkdaşları Vüqar Hümbətov, Azər Sadıqov Azərbaycanın multikulturalizmə alternativi olmayan mütərəqqi bir siyasət kimi yanaşdığını qeyd etdilər. Vurğuladılar ki, bu siyasətin nəticəsində ölkəmizdə dini etiqad azadlığının təmin olunmuş, rəsmi fəaliyyət göstərən bütün dini icmalar qanun qarşısında eyni məsuliyyəti daşıyır və dini radikalizmin qarşısı alınır. Ölkəmizdə yaşayan bütün xalqların və etnik qrupların dini azadlıq hüquqlarının müdafiə olunmasına dövlətimizin xüsusi fikir verməsini qeyd etdilər. Ölkəmizdə olan Alban kilsələrinin, sinaqoqların bərpa olunması və yenilərinin tikilməsinin buna əyani sübut olduğunu qeyd etdilər.

Canlı dialoq şəklində davam edən tədbirdə fikir və mülahizələr dinlənildi, iştirakçıları maraqlandıran suallara aydınlıq gətirildi.

***"Hacıqabul"***



# Üç rəngli bayrağımla fəxr edirəm

***Rayon Heydər Əliyev Mərkəzində 9 noyabr Azərbaycan Respublikasının Dövlət bayrağı günü ilə əlaqədar "Üç rəngli bayrağımla fəxr edirəm" adlı tədbir keçirildi. Əvvəlcə Mərkəzin Rəsm kursunun əl işlərindən ibarət sərgiyə baxış keçirildi.***

Tədbirdə qeyd olundu ki, Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan dövlətinin suverenliyinin rəmzidir.Bu gün Azərbaycan Respublikası üzərində dalğalanan müqəddəs Dövlət Bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada qəbul edilmiş və qaldırılmışdır.Müstəqil Azərbaycanın dövlət bayrağındakı üç rəngin ifadə etdiyi və XX əsrin əvvəllərindəki milli istiqlal ideologiyamızın üç təməl prinsipini təşkil edən "Türkçülük, islamçılıq və müasirlik" düsturunun müəllifi görkəmli Azərbaycan mütəfəkkiri Əli bəy Hüseynzadədir.

Sonra məktəblilərin ifasında şeirlər səsləndirildi.

Sonda Dövlət bayrağı gününə həsr olunmuş rəsm müsabiqəsinin qaliblərinə Diplomlar təqdim olundu.

***Aytən Zülfəliyeva,***
***Rayon Heydər Əliyev Mərkəzinin direktoru***

# Mənim hüquqlarım məni qoruyur

***Hər il olduğu kimi bu il də Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin təşəbbüsü ilə ənənəvi olaraq 20 oktyabr - 20 noyabr tarixlərində BMT-nin Uşaq Hüquqları Konvensiyasının qəbul edilməsinin ildönümü ərəfəsində respublikamızda "Uşaq Hüquqları aylığı" elan edilmişdir. Aylığın keçirilməsində məqsəd uşaqlara diqqətin artırılması, uşaq hüquqlarının həyata keçirilməsi vəziyyətinin daha da yaxşılaşdırılmasıdır.***

Elə bu məqsədlə şəhər 8 saylı humanitar fənlər təmayüllü məktəb-liseydə müxtəlif tədbirlər, dəyirmi masalar, maarifləndirmə tədbirləri, müsabiqələr, sərgilər təşkil olunur ki, bu da uşaq hüquqlarının effektiv təmininə və təbliğinə xidmət edir. Keçirilən tədbirlərdə şagirdlər özlərinin müstəqil düşüncələrini əhatə edən referat və məqalələri ilə çıxış etmiş, gündəlik həyatlarında öz hüquqlarını tanıyıb və qorunması haqqında söhbətlər, müzakirələr aparılmışdır. 26 oktyabr 2016-cı il tarixində "Uşaq hüquqlarının konvensiyası", "Mənim hüquqlarım məni qoruyur" mövzusunda diskussiyalar, 31 oktyabr 2016-cı il tarixində "Sən öz hüquqlarını bilirsənmi?" mövzusunda dəyirmi masa, 04 noyabr 2016-cı il tarixində "Mən və hüquqlarım" adlı rəsm musabiqəsi keçirilmiş, "Uşaq hüquqları haqqında " qanunda əks olunan müddəalarla əlaqədar şagirdlərin rəy və mülahizələrini öyrənmək üçün anket sorğuları təşkil edilmişdir. Bütün bu görülən işlər uşaqlara diqqətin artırılması, uşaq hüquqlarının həyata keçirilməsi mexanizminin daha da yaxşılaşdırılması, onların daha effektiv müdafiəsinin təmin olunması, məktəblilər arasında hüquqi maarifləndirmənin aparılması məqsədi daşıyır.

***N.Zərbəliyeva,***
***şəhər 8 saylı humanitar fənlər təmayüllü məktəb-liseyin Uşaq Birliyi Rəhbəri***

1.qxd 30.12.2016 10:50 Page 4



# HACIQABUL

№ 23 (657) 15 noyabr 2016-cı il



## Bir kərə yüksələn bayraq bir daha enməz!



***Kolanı kənd tam orta məktəbində Dövlət Bayrağı Günü ilə əlaqədar bayram tədbiri keçirildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra hərbi geyimli şagirdlər əllərində üçrəngli bayraqlarla zala daxil oldular.***

Tədbiri məktəbin direktoru Arifə Əliyeva açaraq tədbir iştirakçılarını bayram münasibəti ilə təbrik etdi, Dövlət Bayrağı gününün təsis edilməsi haqqında şagirdlərə məlumat verdi.

Məktəbin IIIa sinif şagirdlərinin hazırladıqları kompozisiya tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılandı. Tədbir boyu şagirdlər Vətənə, torpağa, bayrağımıza həsr olunmuş şeirlər söylədilər, mahnılar oxudular.

Tədbir M.Ə.Rəsulzadənin "Bir kərə yüksələn bayraq, bir daha enməz" kəlamları ilə sona çatdı.

***Xədicə Novruzova,***
***Kolanı kənd tam orta məktəbinin***
***ibtidai sinif müəllimi***

## "Bacarıqlı əllər" müsabiqəsi keçirildi

İstedadlı yeniyetmələrin yaradıcılıq qabiliyyətinin üzə çıxarılması sahəsində rayon Tarix Diyarşünaslıq Muzeyində müxtəlif növ əl işlərindən ibarət yaradıcılıq müsabiqəsi keçirildi.

Müsabiqədə iştirak edən iştirakçıların əl işlərinə baxış keçirilmiş və qaliblər müəyyən olunmuşdur. Qalibləri rayon Gənclər və İdman İdarəsinin rəisi Saleh Ələskərov təbrik edərək onlara gələcək müsabiqələrdə də uğurla iştirak etmələrini arzuladı.

Qaliblər diplom və hədiyyələrlə mükafatlandırıldı.

***Bəsti Zərbaliyeva,***
***rayon Gənclər və İdman İdarəsinin***
***Aparıcı məsləhətçisi***





*Qəzetimizin ötən saylarının birində əməkdaşımız Nazim Fətixanoğlu rayonumuzun Paşalı kəndində yaşayan dil-ədəbiyyat müəllimi, şair Əmrah Şirvanlının həyat və yaradıcılığından bəhs etmiş, onun iki şeirini qəzetimizdə dərc etmişdik. Qəzetimizin bu sayında şairin şeirlərindən daha ikisini oxucularımıza təqdim edirik.*

### Sabir-xalqımın qeyrət simvolu

Sözü silaha döndərən sən oldun, sən
Bir böyük qaragühurun içində
Canından, qanından qorxmayan
Azadlıq mücahidim.
Qürurum, məğrurluğum, haqqım.
Iyirminci əsrdə yeni Nəsimim,
Heç kim görməmişdi söz,
Orduda əsgər kimi döyüşə.
Sözün qılıncdan bu cür
Kəsərli olduğunu.
Heç kim görməmişdi Sənə qədər
Sözün qeyrətdən yoğrulduğunu.
Yalançı sözbazların,
Çeynənmiş "millət, ədalət" şüarını
Döyüşən misralarıyla, haqq sözüylə
Alt-üst edənim.
Sözü həqiqət, sözü haqq,
Sözü qeyrət edənim.
Əyləşib qədim Şamaxıda,
Əyləşib sabun dükanında,
İranı, Turanı,
Okeanın o tayını gəzənim.
Sözü Quran ayəsi kimi çin olanım,
Dünən söylədiyi bu günün də
Ölçüsü olanım.
Bütün zamanların şairi-
Sözümün kəsəri,
Xalqımın qeyrət simvolu, Sabirim!

### Qəfil baxışların

Qəfil baxışların ovladı məni,
Qəfil baxışların ovsuna döndü.
Ürəyim, onsuz da, sevda məskəni,
Bir qəfil baxışa sanki təşnəydi.

Düşdüm ovsununa mən dönə-dönə,
Vüsal vəd edirdi o qəfil baxış.
Ilahi, göydən də yağış yerinə,
Məhəbbət yağarmış, sevgi yağarmış.

Qəfil küçələrdə gəldik üz-üzə,
Qəfil rastlaşdıq biz hər axşam, səhər.
Düşündük: bu sevgi gələr bəd gözə,
Düşündük: söz edər ağzıgöyçəklər.

Nə qədər ülviydi o qəfil baxış,
Gözlərin, elə bil, şehli çiçəkdi.
Gur saçlar altında o kaman qaşın,
Qəmzəsi baxanı kül edəcəkdi.

O qəfil baxışlar zərif kəpənək,
Qayıdıb üstümə qonarmı bir də?
O baxış zülmətdə işıq selitək,
Gözümdə, könlümdə yanarmı bir də?

Demə, ayrılıqmış görüşün sonu,
Tapılmaz o baxış heç vaxt, heç yerdə
Indi mən görürəm həmişə onu,
Itən gəncliyimlə xatirələrdə.

### Düzəliş

Qəzetimizin 20 oktyabr 2016-cı il tarixli 22(656) saylı buraxılışında "Oğullar əsgər gedir" sərlövhəli yazıda -mayor Ərfan Nəbiyev sözləri-mayor Əfran Nəbiyev kimi oxunmalıdır.

### Elan

Hacıqabul rayon Aqrar İslahat Komissiyasının 08 sentyabr 1997-ci il tarixli qərarı ilə Nəcəfov Nəcəfqulu Xanqulu oğlunun adına verilmiş JN-117, kodu 91004038 olan torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Hacıqabul rayon Aqrar İslahat Komissiyasının 05 yanvar 1998-ci il tarixli qərarı ilə Zeynalova İradə Mirzağa qızının adına verilmiş JN-513, kodu 91007018 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Hacıqabul şəhər sakini Abasov Samir Əvəzəli oğluna məxsus Əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

### Allah rəhmət eləsin!

Hacıqabul rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi iş yoldaşları Afiq Kərimova əzizi
**Səfura xanımın**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Hacıqabul rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Coşqun Əmirova qardaşı
**İlqarın**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi həkim Hafiz və Firuzə Bəşirovlara əzizləri
**Mahmud müəllimin**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Hacıqabul rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Talış kənd İƏD üzrə nümayəndə Üzeyir Həsənova qardaşı
**Asifin**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Rayon Maliyyə Şöbəsinin müdiri Vüqar İbrahimov və kollektivi Coşqun Əmirova qardaşı
**İlqarın**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Gülxanım Mustafayeva, Zərifə Sevdimalıyeva, Sona Mustafayeva rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Coşqun Əmirova qardaşı
**İlqarın**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov və kollektivi Coşqun Əmirova qardaşı
**İlqarın**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov və kollektivi Afiq Kərimova əzizi
**Səfura xanımın**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Mərkəzi rayon Xəstəxanasının baş həkimi Beydulla Qarayev və kollektivi Coşqun Əmirova qardaşı
**İlqarın**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

MRX-nın baş həkimi Beydulla Qarayev və kollektivi Afiq Kərimova əzizi
**Səfura xanımın**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

"Hacıqabul"qəzetinin redaktoru Xuraman Feyruzqızı və Hacıqabul şəhər İƏD üzrə nümayəndə Laləzar İbrahimova Afiq Kərimov və Nadir Səmədova əzizləri
**Səfura xanımın**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Xuraman Feyruzqızı və Laləzar İbrahimova Coşqun Əmirova qardaşı
**İlqarın**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Xuraman Feyruzqızı və Laləzar İbrahimova həkim Hafiz və Firuzə Bəşirovlara əzizləri
**Mahmud müəllimin**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

MRX-nın baş həkimi Beydulla Qarayev və kollektivi həkim Hafiz və Firuzə Bəşirovlara əzizləri
**Mahmud müəllimin**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

"Hacıqabul" qəzetinin əməkdaşı Nazim Fətixanoğlu həkim Vaqif İbrahimbəyliyə əzizi
**Rəfiqə xanımın**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Nazim Fətixanoğlu Kamandar İbrahimova oğlu
**Elbrusun**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

MRX-nın baş həkimi Beydulla Qarayev və kollektivi iş yoldaşları Vaqif İbrahimbəyliyə əzizi
**Rəfiqə xanımın**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Şükür Məmmədov və kollektivi həkim Hafiz və Firuzə Bəşirovlara əzizləri
**Mahmud müəllimin**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.


**HACIQABUL**

**Baş redaktor:**
Xuraman Feyruzqızı

**Həmtəsisçi:**
Qəzetin jurnalist kollektivi
Qəzet "Hacıqabul" qəzetinin kompyuter mərkəzində yığılmışdır, "Son dakika MMC" mətbəəsində çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200